# Kamançanın sonuncu simi qırıldı...



## Görkəmli sənətkar, xalq artisti Habil Əliyev son mənzilə yola salındı

**“Mən kiməm ki... adım-sanım, sənətim, mədəniyyətim, varlığım, hər şeyim kamançadır”**

**Xalqımız daha bir dəyərli sənətkarını, məharətli kaman ustası, hər kəsin sevimlisi olan xalq artisti Habil Əliyevi itirdi. Xalq artisti İlham Əsgərovdan sonra belə bir korifey sənətkarın dünyasını dəyişməsi Azərbaycan mədəniyyətinə, incəsənətinə böyük zərbə oldu. Çünki bu cür böyük sənət xadimləri hələm-hələm yetişmir. Onların yerini də kimsə doldurmur, doldurmayacaq da.**

Uzun müddət idi ki, sənətkarın səhhətində ciddi problemlər yaranmışdı. Bu problemlərə görə avqustun 15-də ürək və tənəffüs çatışmazlığı diaqnozu ilə xəstəxanaya yerləşdirilən Habil Əliyevi mətbuat nümayəndələri də diqqətdən kənarda buraxmadı. Səhhəti müəyyən qədər qaydaya düşdükdən sonra avqustun 22-də xalq artisti evə buraxılaraq müalicəsini davam etdirirdi. Ailəsi ilə mütəmadi əlaqə saxlayıb, onun vəziyyətini xəbər alırdıq. Sonuncu dəfə bir neçə gün əvvəl oğlu Rəvan bildirmişdi ki, sənətkarın vəziyyəti ürəkaçan deyil. O, yenidən komaya düşmüşdü. Allahdan ümid kəsilməz - deyib, onun yenidən həyata qayıdacağını, yenə də əvvəlki kimi bizimlə deyib-güləcəyini, duzlu zarafatlarını öz dilindən eşidəcəyimizi gözləyirdik. Ancaq... çox təəssüf ki, belə olmadı. Böyük sənətkar sentyabrın 9-na keçən gecə 89 yaşında həyata gözlərini əbədi yumdu...

### “VAXTIM ÇATIB”

Habil Əliyev ölümündən 1-2 həftə əvvəl ANS telekanalına geniş müsahibəsində yaşamaq istədiyindən, həyatın gözəlliyindən danışmışdı. Xəstə halı ilə özünü müsahibə verməyə məcbur edən sənətkar heç nəyə gücünün çatmamağından şikayətlənirdi: “Heç zada gücüm çatmır. Bu saat mən heç kiməm. Mənim ölüm vaxtım çatıb. Ancaq nə deməkdisə, adam elə ölüm vaxtı çatanda yaşamaq istəyir. Həyat onda daha da şirinləşir. Özü də adam hiss edir ki, vaxtı çatıb. Deyir ki, həyatdan mən nətəhər əl çəkib gedim? Bu günlərə gəlmək üçün əziyyətlər çəkmişik. İndi gəlib arzularıma çatmışam. Nəyə görə qoyub gedim? Ona görə getmək istəmirəm”.

H.Əliyev onu da bildirmişdi ki, infarkt keçirəndən sonra ölümün yaxınlaşdığını hiss edərək həyat yoldaşına öz arzularını, son istəklərini deyib, ancaq bir qədər sağaldıqdan sonra dediklərindən utanıb. Çünki hesab edirmiş ki, vəsiyyət edən adam sonradan ayağa duranda eybəcər görünür. Xalq artisti müsahibəsində vəziyyəti ağırlaşandan sonra mətbuatın və dövlətin ona verdiyi dəyərdən də danışmışdı: “Mənə çox böyük diqqət göstərən bizim hörmətli Mehriban xanım olub. Müalicəm barədə də çox diqqət göstərdi. Zəng vurmadığı gün olmadı. Həkimlərlə hər gün əlaqə saxladılar. Qurban olum Allaha, bu gün o məni saxladı. Amma dedi ki, qudurma. Qudurmaq mənim qanımda, nəslimdə olmayıb. Mən də qudurmayacağam. Amma nə qədər imkanınız var, qoyun bir az yaşayım. Hələ yaşamağı indi başa düşürəm. Yaşamağın qədrini indi-indi bilirəm. Yaşamaq get-gedə gözəlləşir. Çox şükür Allaha, qoca yaşımda nə görmək istəyirdimsə, hamısını görürəm. Bundan yaxşı arzu ola bilməz. Mən arzularıma çatıramsa, bunun hamısının savabı sizdədir”.






### “DAHA ÖLÜMDƏN QORXMURAM”

Ən çətin vaxtlarında kamançanın onun həyatını demək olar ki, xilas etdiyini dəfələrlə deyirdi. Buna görə sənətkar kamanına yüksək qiymət verirdi: “Mən kiməm ki, mənim adım-sanım, sənətim, mədəniyyətim, varlığım, hər şeyim kamançadır. Sanki Allah o qabiliyyəti mənə verib ki, bu ailə, uşaqlar dolansınlar. Mənə elə gəlir ki, o, canlıdır. O vaxt qohum-qonşuda çoxu acından öldü, elə ev oldu ki, bir adam da sağ qalmadı. Amma kamança bizi acından ölməyə qoymadı. İndi kamança çalanlar elə adi bir kamança kimi baxırlar bu alətə, amma mən yox. Vallah, ailə-uşaqdan utanmasam, yatanda da yanıma qoyaram ki, soyuq-zad olar. Ona müqəddəs bir şey kimi baxıram”.

Son illər çalışmadığını bədəninin zəifləməsi ilə əlaqələndirirdi. İllərini sənətə fəda edən kamança ustası artıq çətinlik çəkdiyini son müsahibəsində etiraf edirdi: “İndi kaman qoluma ağırlıq edir. Ona görə də çalmıram. Bu yaxınlarda televiziyada vida konserti verməyə hazırlaşıram. Yaşım elədir ki, birdən yataram, səhər oyanmaram. Amma daha ölümdən qorxmuram. Ölüm məndən qorxur. Əzrayıl gəlsə, ona bircə onu deyərəm ki, yaman insafsızdır. Kimin canını alacağını bilmir. O qədər canı alınasılar var ki... Allahdan özümə aid heç nə istəmirəm. Mənə nə lazımdırsa verib, dolanmışam. Həmişə yalvarmışam ki, mənim gördüyüm günləri indiki cavanlara göstərmə”.

### “ONSUZ DARIXACAĞIQ”

Dünən Habilsevərlər onunla vidalaşmaq üçün Azərbaycan Dövlət Filarmoniyasına yığışdı. Gözlər kədərli, gözlər yaşlı... Əllərində gül dəstəsi Filarmoniyaya üz tutanlar ailəsinin dərdinə şərik oldular. Geniş salonda cənazə ilə üzüzə oturan insanlar mərhumla keçirdikləri günlərdən, acılı-şirinli xatirələrdən danışırdılar. Dövlət nümayəndələri, ictimai xadimlər, sənət yoldaşları ilə bərabər, onunla vidalaşmağa çoxlu sayda sıravi insanlar da gəlmişdi.

Mərhumun həyat yoldaşı Şərqiyyə xanım Habil Əliyev üçün darıxacağını, bu gündən etibarən onsuz yaşamağın çətin olacağını dedi: “Allah Habil müəllimə rəhmət etsin. O, sənətini və sənət adamlarını çox istəyirdi. Deyirdi ki, mənimlə bu qədər çox maraqlandıqları üçün sağalandan sonra sənətçiləri və media nümayəndələrini toplayıb, onlara qonaqlıq verəcəm. Həyatdan ayrılmaq istəmirdi, nə edək ki, ömrü bura qədərmiş. İşləri yarımçıq qaldı. Vəsiyyəti yox idi. Dedi xalqım, dövlətim mənim üçün hər şey edib. Bircə istəyirdi ki, sağlığında verilən qiymət, ölümündən sonra da verilsin. Biz istəməmişik, dövlətimiz sağ olsun ki, sənətkarı son mənzilə təmtəraqla yola salır”.

Danışmaqda çətinlik çəkən oğlu Rəvan Habiloğlu atasının dünyadan nakam köçmədiyini, ancaq onsuz yaşamağın çox çətin olacağını bildirdi: “Atam nəvə, nəticə gördü. Onun elə bir arzusu qalmadı ki, yerinə yetməsin. Bircə arzusu var idi, o da ayağa qalxıb sənətini davam etdirmək idi. Atam rahat uyusun. Onun ölümü ilə mən yaxın sirdaşımı, dostumu və nəhayət, atamı itirdim. Onun yeri boş qaldı mənim üçün. Bu, Azərbaycan xalqı və öz ailəsi üçün böyük itki oldu. Mən atasız bundan sonra necə yaşayacağımı ağlıma gətirə bilmirəm. Çox çətindi. Mən daima atamın yanında olmuşam və onun son nəfəsinəcən başının üzərində oldum. Atamın ölümündən qabaq mənə olan nəsihəti həmişə olduğum kimi qalmaq və dəyişməyəcəyimlə bağlı idi”.



### “ŞƏRƏFLƏ YAŞADI, ŞƏRƏFLƏ ÖLDÜ”

Mərhumla vidalaşmağa gələn sənət adamlarının içərisində mərasim boyu göz yaşlarına hakim ola bilməyən müğənni Röya Ayxan da var idi. O, görkəmli kamança ustasının ölümündən kədərləndiyini bildirdi: “Mənim üçün doğrudan da çox çətindir. Böyük sənətkar itirdik, artıq onun kamanının səsi, gözəl danışığı, məzəli zarafatları olmayacaq. Hər adama şərəfli ölüm nəsib olmur. Şərəflə yaşadı, şərəflə öldü. İndi onun kimi insan olmaq çox çətindir. Habil Əliyev gözəl insan olmağı bacardı. Biz onun kimi ola bilmərik. Yəqin ki, ondan sonra uzun illər Azərbaycanda kamanın səsi eşidilməyəcək. Hətta mənə İrandan zənglər gəlir, başsağlığı verirlər. İndi bilirəm ki, Habil Əliyev fenomeni nə deməkdir”.

Bu gün Habil Əliyev kimi ifaçı tapmaq çox çətindir. Axı o, görkəmli tarzən Qurban Pirimovdan, məşhur xanəndə Xan Şuşinskidən muğam sənətinin sirlərini öyrənib. Korifey sənətkar “Segah”, “Bayatı-Qacar”, “Bəstənigar”, “Bayatı-Şiraz”, “Rahab”, “Bayatı-Kürd”, “Cahargah”, “Rast”, “Zabul” muğamlarına kamança həyatı verərək onları tamaşaçılara sevdirmişdi. H.Əliyev ötən əsrin əllinci, altmışıncı illərində artıq mahir kamança ustası kimi formalaşıb, el arasında geniş şöhrət qazanmışdı. Onun virtuoz çalğısını musiqi bilicilləri tez-tez Nikkolo Paqaninin ifası ilə müqayisə edirlər. Ustad sənətkar virtuoz ifaçılığı ilə yanaşı, gözəl mahnıların da müəllifidir. Onun bəstələdiyi 15-dən artıq mahnı bu gün də tanınmış musiqiçilər tərəfindən sevilə-sevilə ifa olunur. Biz onun üçün hələ çox darıxacağıq. Həm gözəl insan, həm də gözəl sənətkar kimi o daima bizim qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**P.S. Habil müəllim, Əzrayıla deyin, deyin ki, o, yaman insafsızdır...**

**Xəyalə Rəis**